«AZƏRBAYCAN» qəzetinin 1918-ci il 16 oktyabr (Çərşənbə günü) tarixli XVI nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

AZƏRBAYCAN

Çaharşənbə, 9 məhərrəmülhəram sənə 1337. 16 təşrini-əvvəl sənə 1918.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Kolyubakinskaya küçədə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 6-91.

Tək nüsxəsi 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Yanvarın birinədək Bakı üçün 35, başqa şəhərlərə 42 rublədir.
Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir.

Elan fiatı: sətri 2 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

İXTAR
[XƏBƏRDARLIQ]

1. Azərbaycan Hökumətinin qərarı mövcibincə [qərarına əsasən], yarın aşura olmaq münasibəti ilə ümuma tətil elan edilir.

2. Bu gün tasua, sabah aşura və altdakı gün isə cümə günü olmaq münasibəti ilə qəzetəmizin 18-ci nömrəsi yekşənbə [bazar] günü çıxacağı elan olunur.

İdarə

ORDU KOMANDANI
PAŞA HƏZRƏTLƏRİ XÜSUSİ ZİYARƏTLƏRİ

Sabah saat 10-dan 12-yə qədər müddət zərfində məqamirəsmiyyələrində qəbul edəcəklərdir. Ziyarət edəcək zəvatın [şəxslərin] ziyarətdən bir gün müqəddəm [əvvəl] Ordu Komandanlığı yavərinə məlumat vermələri rica olunur.

Ordu Ərkani-Hərbiyyə
[Baş Qərargah] Rəyasəti

ELANİ-RƏSMİ

I

1) Şamaxı, Quba və ətrafı musəvi [yəhudi] əhalisindən fərar surəti ilə Bakıya iltica edən bilcümlə musəvi ailələr, nəhayət beş gün zərfində Bakını tərkə məcburdurlar.

2) Zikr edilən müddət zərfində çıxmayanlar, bittövqif [həbs edilərək] Azərbaycan hüdudu xaricinə çıxarılacaqlardır.

3) İşbu əmr tarixi-elanından [elan edildiyi tarixdən] etibarən üç gün Bakıda müntəşir [nəşr olunan] bilümum [bütün] qəzetələrlə nəşr ediləcəkdir [yayılacaqdır].

II

1) Qadın, erkək bülcümlə erməni əhalisinin Tiflis, İrəvan və sair məmaliki-xariciyyəyə əzimətlərinə [getmələrinə] Ordu Komandanlığınca müsaidə edilmişdir.

2) Əzimət edənlər səyahət vərəqələrini Polis Müfəttişi-Ümumiliyindən alacaqlardır.

3) İşbu əmr, tarixi-elanından etibarən beş gün Bakıda müntəşir bilümum qəzetələrlə nəşr ediləcəkdir.

Polis müfəttişi-ümumisi Bəhaəddin

AZƏRBAYCAN DAİRƏSİNDƏN QEYRİ MƏMLƏKƏTLƏRƏ ÇIXARILAN ŞEYLƏR ÜÇÜN MÜVƏQQƏTİ GÖMRÜK VERGİSİ

1) Hər cür taxıl; düyü, kartofel, noxud və lobidən başqa hər putuna 20 rublə;
2) Düyü 30 rublə;
3) Hər cür un və krupa 30 rublə;
4) Bişmiş çörək 40 rublə;
5) İnək, qoyun və qeyri heyvan piyləri 20 rublə;
6) Hər cür pənir 20 rublə;
7) Yumurta (hər yüzünə) 10 rublə;
8) İnək və qoyun yağı (hər putuna) 20 rublə;
9) Kürü (ikra) hər putuna 100 rublə;
10) Təzə balıq hər putuna 5 rublə;
11) Hazırlanmış balıq (quru, duzlanmış və qeyrə [ilaxır]) 15 rublə;
12) Ev heyvanları (at, hər cür ev heyvanları, xüsusi tedad edilənlərdən başqa) hər rə'sinə [hər başa] 20 rublə;
13) Qaramal hər rə'sinə 20 rublə;
14) Qoyun hər rə'sinə 15 rublə;
15) Hər cür göyərti putuna 2 rublə;
16) Yaş meyvə putuna 2 rublə;
17) Hazırlanmış (quru və qeyri) meyvələr putuna 5 rublə;
18) Hər cür qoz, şabalıd putuna 3 rublə;
19) Çay putuna 200 rublə;
20) Hər cür tənbəki putuna 40 rublə;
21) Papiros hər ədədinə 2 qəpik;
22) Qənd və bal hər putuna 100 rublə;
23) Araq, konyak (hər faizinə 40 qəpik aksizdən əlavə) butulkasına 2 rublə;
24) Şərab hər şüşəsinə 50 qəpik;
25) Hər vedrəsinə 4 manat 80 qəpik aksizdən əlavə xəfif və hər bir vedrəsinə 14 manat 40 qəpik sərt müskiratın [spirtli içkilərin] boçkada olanlarının hər bir vedrəsinə 1 rublə;
26) Hər cür sirkə hər vedrəsinə 3 rublə;
27) Hər cür duz putuna 1 rublə;
28) Balıq yapışqanı putuna 100 rublə;
29) Mal buynuzu və dırnağı putuna 1 rublə;
30) Hər cür tük putuna 10 rublə;
31) Quş tükü putuna 10 rublə;
32) Tük balınclar və döşəklər putuna 5 rublə;
33) Mum putuna 20 rublə;
34) Hər cür şam putuna 80 rublə;
35) Hazırlan[ma]mış dəri (gön) putuna 10 rublə;
36) Hər cür hazırlanmış dəri (gön) putuna 40 rublə;
37) Dəridən qayrılmış şeylər (çustdan başqa) putuna 120 rublə;
38) Çust putuna 40 [rublə];
39) Rezin (işlənmiş və ya işlənməmiş) putuna 100 rublə;
40) Zəy putuna 10 rublə;
41) Hər cür sabun putuna 40 rublə;
42) Mis putuna 20 rublə;
43) Misdən hazırlanmış şeylər putuna 40 rublə;
44) Nal və mıx putuna 5 rublə;
45) İp (kəndir) putuna 5 rublə;
46) Kuporos putuna 20 rublə;
47) Yun putuna 20 rublə;
48) Yun parçalar putuna 100 rublə;
49) Papaqlıq dəri hər ədədinə 5 rublə;
50) Pambıq toxumu hər putuna 10 rublə;
51) Təmizlənməmiş pambıq putuna 10 rublə;
52) Təmizlənmiş pambıq putuna 30 rublə;
53) Qaliçə [xalça] putuna 100 rublə;
54) Palaz ədədinə 25 rublə;
55) İpək parçalar putuna 100 rublə;
56) Saxsı hər min ədədinə 10 rublə;
57) Kibrit hər qutusuna 10 qəpik.

Qeyd:

1 – Burada adları zikr edilməyən mallardan xaricə aparıldıqda, xaricdən gətirilən mallardan ötrü təyin edilmiş tarifələr qərarı ilə vergi alınır.

2 – Hər dəfə Ticarət və Sənaʼət nazirinin icazəsi olmadığı halda hər cür taxıl, un, bişmiş çörək, pambıq, yun, ipək, hər cür ipək parçalar, hər cür maʼdəni şeylər, diri və kəsilmiş heyvan xaricə aparmaq qadağandır.

3 – Qalan şeylərin xaricə aparılması üçün Mərkəzi Gömrükxana İdarəsi namına verilən ərizələr mövcibincə [ərizələrə müvafiq şəkildə] icazə veriləcəkdir.

4 – Xaricə aparmaq üçün icazə verilmiş və qadağan edilmiş şeylərdən gömrük xərci vermədən hər adam başına bu qərarla xaricə aparmaq mümkündür: Hər adama 5 girvənkə çörək, bir girvənkə pənir, 1/8 çay, bir girvənkə kürü (ikra), 10 girvənkə meyvə, 10 ədəd yumurta, şərab və qeyri içkilər bir şüşə və ev şeylərindən ancaq yanında lazım olan qədər.

5 – İcazə almayıb xaricə mal aparmaqda müttəhim edilənlərin malları xəzinə mənfəətinə əllərindən alınıb, apardığı malın gömrük vergisinin beş qat qədəri cərimə alınır. İkinci dəfə bu işdə müttəhim edilənlərin malları əllərindən alınmaqdan başqa, apardığı malların iki qat qiyməti alınıb, mal sahibi isə altı aydan ziyadə [olmamaqla] həbsə alınır. Bundan əlavə 50 verst sərhəddən kənar edilir. Sərhədin bir verstliyində yaşadığı halda bir ildən altı il müddətinə qədər həbs edilir.

6 – Sərnişinlər müttəhim edildikdə, ancaq malları əllərindən alınmaqla cəzalanırlar.

7 – Xaricə mal aparmaq qanununu pozanların işləri yaxında olan gömrük idarəsinə göndərilir. Ancaq malları əllərindən alınıb cərimə edilənlərin işləri oradaca həll edilib, bundan əlavə cəzaya müstəhaq [layiq] olanların işi məhkəmə idarələrinə göndərilir.

8 – Həmin qərardad mövcibincə alınan paralar, həmçinin tutulan mallardan, vəsaiti-nəqliyyədən [nəqliyyat vasitələrindən] hasil olan məbləğdən gömrük vergisi, malların nəql edilib satışı məxarici, xəzinə vəkilinin zəhmət haqqı, məhkəmə məxarici və 30 faiz xəzinə nəfinə çıxıldıqdan sonra, qalan hissəsi icazəsiz aparılan malları axtarıb tutanlara bəxşiş veriləcəkdir.

9 – Başqa ittifaqlarda [hallarda] gömrük idarələri gizlin mal aparanlar haqqında hal-hazırda davam edən qanunlarla hərəkətdə bulunacaqlardır.

Maliyyə naziri:
Məhəmmədhəsən Hacınski
11 oktyabr 1918

BAKI,
16.10.34

Bir qaç gündən bəri həvadis [xəbər] azlığından üzücü bir can sıxıntısı davam edib gedirdi. Nəhayət, 22 eylül [sentyabr] tarixli İstanbul qəzetələri həvadisi-cahanın [dünya xəbərlərinin] bundan bir qaç gün əvvəlinə qədər olan qismini bizə yetişdirdi.

Müttəfiqimiz Avstriya və Macarıstan Kral və İmperatorluğunun heç bir təəhhüdü təzəmmün etməyib [heç bir öhdəlik ehtiva etməyərək], məhrəm olaraq bitərəf məmləkətlərdən birisində müzakirə olunmaq üzrə verdiyi sülh notasına Amerika və İtaliya hökumətlərinin cavablarını öyrənmiş oluruz.

Beş sənədən bəri insaniyyətin sineyi-qəmxarında [qəmli köksündə] işləyən cərihanın [yaranın] tədavisi [müalicəsi] çarələrini arayan İttifaqi-Mürəbbe [Dördlər İttifaqı]; Etilafın cavabi notası üzərinə hərbin maddi və mənəvi məsuliyyətlərini bir kərə daha üzərindən atmış olur.

Əsasən həşmətli İmperator həzrətləri və Baron Burian cənabları tərəfindən verilən notaya qarşı tərəfi-müxasiminin [düşmən tərəflərin] nasıl bir tövr taxınacaqlarını qismən təxmin və təqdir etməkdə müşkülat yoxdu. Yalnız: imha [məhv] ediləmməyəcəyini, kəndisinə qarşı bir zəfəriqəti ehrazının [qəti zəfər qazanmağın] mümkün olammayacağını isbat etmiş olan Hökumati-Müttəfiqə [Müttəfiq Hökumətlər] bu dəfəki sülhcuyanə təklifatına [sülhpərvər təkliflərinə] nə yolda müqabilə görəcəyini – əvvəlki təcrübələri dolayısı ilə – az çox kəşf və təxmin edə biləcəkləri halda, keçən günlərin beyhudə qan tökülməyə səbəb olduqdan başqa heç bir nəticə verməyəcəyini Etilaf ərkanının [Etilafın dövlət xadimlərinin] artıq anlamış və təqdir etmiş olmaları ehtimalına məbni [söykənərək], təşəbbüsünü təkrar etmişdir.

Xüsəmamız [düşmənlərimiz] bu təklifi kəndi əfkar və hissiyyatlarına görə tələqqi [qəbul] edərək, amali-xəyalpərəstanələrinə güşayiş verdilər [xəyalpərəst arzularına geniş meydan verdilər] və gördüyümüz cavabi notadan da anlaşıla biləcəyi vəchlə [kimi], hənüz bayrağı düşmən torpağında təməvvüc edən [dalğalanan] müəzzəm bir ittifaq deyil, ən aciz bir düşmənə qarşı belə bu yolda cavab vermək balapərvazlığında [təkəbbüründə] bulundular. Müttəfiqimizin sülh notası heç bir zaman istimannamə [aman diləmək üçün yazılan məktub] deyil, bilʼəks insaniyyətin təxlisini [xilasını] istehdaf edən [hədəfləyən] bir dəvətnamədir.

Məmafih [bununla belə], düşmənlərimiz bu müqabilələri ilə mahiyəti-siyasiyyələrini [siyasi mahiyyətlərini], əğraz və məqasidi-istilapərvəranələrini [istilaçı qərəz və məqsədlərini] ənʼənatıyla [kökləri ilə birgə] ifşa və izhar etmiş olurlar. Qayələri millətlərin təxlisi maskası altında təxrib və imha etməkdən [xaraba qoymaq və məhv etməkdən] başqa heç bir şey olmadığını artıq inkar edəmməzlər.

Etilafiyyun [Etilaf Dövlətləri] bu notanı hər nə surətlə tələqqi edərlərsə etsinlər, nə dürlü istərlərsə, öyləcə müqabilədə bulunsunlar, yenə biz Müttəfiqlər bəşəriyyətə qarşı icab edən [zəruri olan] vəzifeyi-şəfqəti [şəfqət borcunu] əda etməkdən mütəvəllid [doğan] bir istirahəti-vicdaniyyə [vicdan rahatlığı] ilə mübarizəmizə davam edəcəyiz. Əhfad [gələcək nəsillər] və tarix bütün lövm [qınaq] və məzəm-mətini bu müqatilənin [qırğınların] davamına səbəb olanlara həsr edəcəkdir. Artıq anlaşılır ki, sülhü sevən və arzu edənlər, ona qovuşmaq üçün heç lisana almamalı və xatirə gətirməməlidir.

Böyük bir xalisiyyəti-vicdanla [vicdani saflıqla] əta etdiyi notaya verdikləri cavab, insaniyyətin müştaq olduğu [arzuladığı] sülh və müsalimətə [salamatlığa] pək böyük bir maneə təşkil edir.

İtaliya amalının [niyyətlərinin] iç üzünü, Amerika nəhayət bulmayan təhəkküm [hökmranlıq] arzularını sətrə [gizlətməyə] belə lüzum gör[m]ürlər. Kəndisinə hamiyi-insaniyyət [bəşəriyyətin himayəçisi] süsü verən Amerika, yırtıcı bir canavar sədası ilə "qan" deyə hayqırır və bizim də sülh masası başında titrək sədaları ilə "pəkey" [lap yaxşı; baş üstə] deyən möhtəriz [çəkinən] və müti [itaətkar] düşmən mürəxxəsləri [nümayəndələri] görüncəyə qədər səbat etməkliyimiz fərz olur.

Kamil Rza

TELEQRAF XƏBƏRLƏRİ

Qafqaziya İslam Ordusu qərargahından

Dərbənd cəbhəsində, 11.10.34. Zaviyan köyü şimalından ordumuza hücum etmək istəyən düşmən 8 məqtul [ölü] və 4 məcruh [yaralı] tərk edərək fərar etmişdir.

13/14.10.34-də Zaviyan istiqamətində irəliləmək istəyən düşmən piyada və süvariləri müqabil hücumumuzla bir zabit olmaq üzrə əlli məqtul və on beş məcruh tərk edərək qovulmuşlardır.

Ordu məntəqəsinin əqsami-sairəsində [digər qisimlərində] sükunət bərdavamdır [davam edir].

Dağıstan istiqlaliyyətini elan etdirmək

Alınan mövsuq [etibarlı] məlumata görə, 12.10.34 tarixində Dərbənddə Şimali Qafqaz Dağlılar İttihad[ı] Cümhuriyyəti, mərasimi-məxsusə ilə [xüsusi bir mərasimlə] kəndi məmləkəti daxilində təsis etdiyi Hökumət qonağına [Hökumət iqamətgahına] Cümhuriyyət bayrağını kəşidə eyləmiş [asmış] və bilcümlə əhali və camaat işbu hökumət uğrunda fədayican eyləyəcəklərinə əhd və misaq eyləmişlərdir [əhd etmiş və and içmişlər].

İdarədən: Bu surətlə elani-istiqlal və təəssüs edən [müstəqilliyini elan edən və qurulan] qonşu hökumətimizi təbrik eyləriz.

SON XƏBƏRLƏR

Leninə sui-qəsd

Kremlovski Sarayda, Leninin istirahət odasında bir cə'bədə [qutuda] dinamit (əczayi-nariyyə [partlayıcı maddə]) tapılmışdır. Bundan naşi [ötrü] əmr verilmişdir ki, saray təftiş edilsin.

Əski nazir Makarovun güllələnməsi

Petroqradda əski Ədliyyə və Daxiliyyə naziri Makarov güllələnmişdir. Nazir fəhlələri Arxangelsk Hökumətinə mülhəq [tabe] olmağa dəvət edici təbliğat tərtib və intişarında [yayılmasında] müttəhim edilmişdir.

İnqilabçı Firsovun güllələnməsi

"Severnaya kommuna" qəzetəsində "Qaragüruh üzvünün güllələnməsi" sərlövhəli xəbərlə inqilabçı Firsovun qətl edilməsi dərc edilmişdir.

Moskvada bolşeviklər hazırlanırlar

Moskvadakı Şura Hökuməti baş qalxıza biləcək üsyanı yatırmağa hazırlanır. Fəhlə soqaqlarında mitralyozlar hazırlanmış, bir neçə yerlərdə top qoyulmuşdur.

İSTANBUL QƏZETƏLƏRİNDƏN

Şahzadə Əbdürrəhim əfəndi həzrətlərinin bəyanatı

Zati-həzrəti-şəhriyarinin cülusi-hümayunlarını surəti-rəsmiyyədə Düvəli-Müttəfiqə hökmdarani-zişanına təbliğ etmək üzrə [Padşah həzrətlərinin taxta keçməsini rəsmi surətdə Müttəfiq Dövlətlərin şanlı hökmdarlarına elan etmək məqsədi ilə], Müttəfiq Dövlətlər paytaxtlarına əzimət etmiş bulunan [gedən] heyətin rəisi Şahzadeyi-cavanbəxt [bəxti oyaq olan] Əbdürrəhim əfəndi həzrətləri "Kölnişe zeytunq" mühərrirlərindən birinə Türkiyə-Alman ittifaqı haqqında atidəki [aşağıdakı] bəyanatda bulunmuşdur:

"Türk və alman millətləri tərəfindən müştərəkən tökülmüş qanların hər iki millət arasında təabəd payidar [əbədiyyətə qədər mövcud] olacaq rabiteyi-qəviyyə [güclü bir bağ] olduğunu söyləmək ehtiyacına qələbə edəmməyiram. Ümid edirəm ki, bu surətlə hüsul-pəzir olan [meydana gələn] rabitələr hərbdən sonra da gevşəməyəcəkdir. Zira, hərb heç bir zaman bir müsibət deyil, bəlkə şərəfli bir sülhü mütəaqib [sülhün ardınca] münasibati-düvəliyyəni [dövlətlər arası münasibətləri] təmin edəcək bir vasitədir." buyurmuşlardır.

"Yeni Gün"

TƏHLÜKƏ QARŞISINDA

Qarabağın son günləri

İrəlicə xəbər verilmiş olduğu üzrə, məhərrəmülhəram ayının birində türk əsakiri [əsgərləri] bir güllə atılmadan Şuşa şəhərini işğal edib, məhəlli [yerli] ermənilər bilamüqavimət [müqavimət göstərmədən] təslim olmuşlardır. Halbuki, bu fəqərə [hadisə] heç gözlənməyirdi. Bəlkə, əksi möhtəməl [ehtimal olunan] idi. Qanlı vuruşmalar, şiddətli müqavimət gözlənirdi.

Bəs nə oldu? Hansı amillər səbəb oldular işlərin böylə xitam [son] bulmasına?

İştə, burasını aydınlaşdırmaq üçün Qarabağ mahalında ermənilərlə müsəlmanların münasibatı [münasibətləri], türk islamların fəaliyyət və tədabirini [tədbirlərini] tənvir etmək [işıqlandırmaq] lazım gəlir.

"Muğan", "Mil" və "Peyğəmbər" düzü adı ilə məruf olub da, bəhri-Xəzərdən başlanaraq neçə min mürəbbe [kvadrat] çağırım məsafəyə imtidad edən [uzanan] vadi, qərbdə Qarabağ dağları ilə qurtarır. Məzkur [adı çəkilən] dağlar bir neçə silsilədən ibarət olub, hər tərəfdən Şuşa şəhərini əhatə edirlər.

Bu dağların arasından şəhərə iki şose yolu gedir. Birincisi Ağdam tərəfindən, digəri Gorusdan (Zəngəzur). Birinci yolda şəhərin otuz səkkiz çağırımlığında ta İbrahim xan, Pənah xan və sair Qarabağ xanları dövründən inşa edilmiş məşhur Əsgəran hasarı [qala divarları] mövcuddur. Hasar iki tərəfdən dağlardan başlanaraq ətraf və əknaf [kənar yerlər] üzərində öylə hökmfərma [hakim] bir vəziyyətdədir ki, onun bürclərinə malik olanlar bir adamın belə şəhərə getməsinə və şəhərdən gəlməsinə mane ola bilər.

İkinci yol Şuşa şəhərindən Gorusa gedən şosedir. Bunun da həmən Əsgəran kimi bir yeri var ki, süni istehkamatı [istehkamları] və hasarı olmamaqla bərabər, yenə də şəhərin boğazı hesab oluna bilər. Zira yolun iki tərəfindəki ucalıqlarda bir neçə tüfəngçi oturarsa, nə xaricdən şəhərə bir adam buraxar, nə şəhərdən xaricə. Buraya "Yarma" derlər.

Qarabağ dağlarının ortasında bir dağın təpəsində Şuşa şəhəri vaqe olub, qırx minə qərib [yaxın] əhalisi vardır ki, bunların əksəriyyətini islamlar təşkil edir.

Bundan əlavə, şəhərin dörd tərəfində on iki erməni köyü olub, məşhur Əsgəran nam müstəhkəm yer dəxi işbu köylərin arasında sıxışmış bulunur. Ancaq bir qədər erməni köylərinin içində yalnız Malıbəyli ismində bir köy vardır.

Ermənilər nə fikirdə idilər?

Qafqaziyada hərc-mərclik başlandığı zamandan bəri Qarabağ ermənileri guya bütün Qafqaziyadan ayrılmış, bir köşəyə çəkilmiş kimi bir vəziyyət alaraq, nəhayət Zaqafqaziyada üç cümhuriyyət elan edildikdə, bunlar heç birisini tanımaq istəməyərək, müstəqil "Qarabağ" hökuməti təşkil etmək istədilər, həm etdilər də. Fəqət müsəlmanlar böylə bir hökuməti görmək, tanımaq istəmədilər. Bundan dolayı məhəlli türklər ilə ermənilər arasında süstlük, soyuqluq və narazılıq başlanaraq nəhayət, müsəllah müsadiməyə müncər olmaq [silahlı toqquşmalarla nəticələnmək] dərəcəsinə gəldi.

Müsəlmanları Qarabağ hökuməti təşkilinə və Qarabağ cümhuriyyəti elanına məcbur etmək qəsdi ilə ibtida [əvvəlcə] qonşularımız şirin sözlər, böyük vədlər və sair kimi aldatmalara təvəssül etdilər [əl atdılar]. Lakin böylə təşəbbüslərin hədər və bisəmər [faydasız] olduğunu göründükcə, təşəbbü-sati-təcavüzkaranəyə iqdam etdilər [təcavüzkar təşəbbüslərə başladılar]. Bu məqsədlə ən əvvəl Əsgəranı bağladılar. Bu surətlə, son dörd ay zərfində şəhər ilə Ağdam arasında əlaqə kəsildi. Şəhərə azuqə gəlmədi. Şuşadan Qaryagin və Xəlifəliyə gedən cığır yolları da kəsildi. Şəhərə məkulat [ərzaq] buraxmadılar. Gediş-gəliş dəxi kəsildi. Zira gedənləri yolda qətl edirlərdi.

Axır aylar Andranik və Şahnəzəryan qoşunlarının Şuşaya gələcəyi xəbərləri alınmağa başladı. Ermənilərin bihəyalığı yüz qat artaraq şəhərin ətrafında deyil, daxilində də müsəlmanları sıxmağa başladılar. Kəndiləri müsəlləh olaraq müsəlman bazarına gəlirlər, fəqət müsəlmanlardan Ermənistana getmək istəyənləri axtarır, silahlarını alırlardı. Bundan dolayı müsəlmanlar dəxi Ermənistana getməkdən imtina edirlərdi. Bu surətlə bütün Qarabağda, gərək şəhərdə və gərəksə köylərdə erməni ilə müsəlmanın əlaqə və münasibatı [münasibətləri] bilmərrə kəsilmiş kimi idi.

Deməli, keçən qış fəslinin hərc-mərc və qəhətliyindən sonra taxıl və meyvə məhsulu bazara çıxan bir zamanda Şuşanın bütün yolları kəsilərək, şəhər yenə də əski ehtiyati-mövcudunun ümidinə qaldı. Fəqət bir şəhərdə böylə qəhətlik illərdə nə qədər taxıl mövcudu ola bilər ki, yeni məhsula ehtiyac qalmasın? Bundan dolayıdır ki, axır zamanlar şəhərdə taxıl bilmərrə qurtararaq aclıq başlandı.

Ermənilər, hər vasitə ilə olur olsun, müsəlmanları Qarabağ cümhurriyyəti elanına və Qarabağ hökuməti təşkilini qəbula məcbur etməyə çalışırlardı, dedik. Lakin burasını qeyd etməliyəm ki, ermənilərin qismi-əksəri [çox hissəsi] hərbcuyanə [müharibə istəyən] bir vəziyyət alaraq türkləri güclə tabe etmək istəyirlərdisə də, sülhcuyanə [sülhpərvər] siyasət aparan və məsələni qan tökmədən həll etmək arzusunda bulunan bir cərəyan dəxi vardı. Ancaq bu cərəyan, ibtida qayət zəif olub, bir müddət hətta səsini belə çıxaramır, gizli çalışırdı.

İki hökumətlilik

Ermənilər Qarabağ cümhuriyyəti elan etmək fikrində olaraq, bu məqsədlə var qüvvələri ilə çalışmaqda ikən, binbaşı Həsən Bəsri bəy Şuşaya, Fəxri bəy Ağdama və Kazım bəy Qaryaginə komandan təyin olunan vəzifələrinin ifasına şüru etdilər [başladılar]. Fəqət türk-islamlar Qarabağ cümhurriyyətini tanımaq istəmədikləri kimi, ermənilər dəxi bizim komandanlığımızı tanımaq deyil, hətta eşitmək belə istəmədilər. Binaileyh [ona görə] Şuşada erməni əhalisi ilə müsəlmanlar bir-birindən qəti surətdə ayrılaraq, o zamanadək mövcud olan hökumət müəssisələrini müsəlmanlar tərk etdilər və Həsən əfəndiyə tabe olaraq ümum hökumət işlərini onun ixtiyarına verdilər. Şəhərin erməni hissəsində isə ermənilər bir müddət əski idarələri davam etdirdikdən sonra, nəhayət Qarabağ erməni qurultayı dəvət etdilər. İki həftəyə qədər bir müddət davam edən qurultay, şəhər ermənilərinin siyasətini təsvib [bəyənərək] və həmən bu ruhda çalışmağın davamını tövsiyə edərək qəti surətdə Qarabağ hökuməti təşkil və nazirlər intixab etdi [seçdi]. Bu qurultayda ermənilərin simayi-həqiqisi açıldı. Qurultay dəvətinədək guruldayan sosializm, demokratiya, ədalət filan kimi parlaq sözlər artıq aradan qaldırılaraq, mütəəssib [ifrat] daşnaksaqanlıq meydana çıxdı. Hökumət tamamilə millətçilərdən təşəkkül etdi. Şimdi ermənilər bir məsələyə müntəzirdirlər: Andranik və Şahnəzəryan nə vaxt gələcəklər ki, müsəlmanları silah gücüylə tabe edək?

(yenə var)

Xəlil İbrahim

BAKI XƏBƏRLƏRİ

* Azərbaycan Hökumətinin qərardadı mövcibincə [qərardadına görə], Bakı və ətrafında Su Nəqliyyatı nahiyə idarəsinə tabe olan hamı müəssisələr və idarələr, Türüq və Məabir Nəzarəti [Nəqliyyat və Rabitə Nazirliyi] idarəsinə keçir.

* Tələbələrin dəmiryolunda dördüncü mövqedə xüsusi qiymətlə getməyinə Türüq və Məabir naziri tərəfindən müsaidə edilmişdir.

* Dördüncü Bakı zükur [oğlanlar] gimnaziyası xəbər verir ki, oktyabrın on yeddisindən başlamış gimnaziyanın hər bir sinfinə daxil olmaq və ikmal imtahanları başlanacaqdır. İmtahanların föhrüstünü [cədvəlini] gimnaziyadan öyrənmək olar.

* İkinci Bakı zükur gimnaziyası bununla xəbər verir ki, oktyabrın on yeddisindən başlamış gimnaziyanın hər bir sinfinə daxil olmaq və ikmala buraxılmış imtahanlar başlanacaqdır. İmtahanların föhrüstünü gimnaziyada öyrənmək olar.

* İkinici Bakı ünas [qızlar] gimnaziyası mütəəllimələrinin [qız şagirdlərinin] valideynlərinə və qəyyumlarına xəbər verir ki, oktyabrın 15-dən başlanan imtahanlar oktyabrın 19-a qədər imtidad [davam] edəcəkdir. İmtahanların föhrüstünü gimnaziyadan öyrənmək mümkündür.

TƏLƏBƏLƏRİN NƏZƏR-DİQQƏTİNƏ

Maarif Nəzarəti Almaniyada təhsil etmək istəyən müsəlman tələbələrinin haqqında nümayəndəmiz Cəfərovun vasitəsi ilə Almanya nümayəndəsi fon Qoltsdan aldığı məlumat budur:

Azərbaycan tələbəsinin Almaniyada təhsilə buraxılması xüsusunda verdiyiniz sual münasibəti ilə işbu eylülün [sentyabrın] onundan məktub və teleqrafla cavab istədim. Cavab aldığım saatda sizi xəbərdar edərəm, əfəndim.

Türk duyğuları

Qafqazlılara

3

HAQDAN ÜRK

Ey intiqam günlərini gizli-gizli bəkləyən!
Ey çamurlu çizmələrin ökcəsində inləyən!
Ey buxovlar, yumruq, toqat altlarında titrəyən!
Qara günlər, qara zindan, qara üzlər görən türk!
Qılınc sənin qismətindir, taxın, yalnız haqdan ürk!

«AZƏRBAYCAN» qəzetinin 1918-ci il 16 oktyabr (Çərşənbə günü) tarixli XVI nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

O böhranlı, o ələmli günlər artıq keçmişdir,
Sənin üçün zəhərləri düşmənlərin içmişdir,
Saf soyuna sənin Allah bu yerləri seçmişdir,
Ey bu yerlər, bu sevimli vətən üçün
ölən türk!
Bu yer sənin toprağındır, yaşa, yalnız
haqdan ürk!

Fəqət çalış, bu toprağın övladı ol, bil, yarın
Bu ehsanın qiymətini bilməz isən bilənin
Dünkü kimi əsarəti altında sən inlərsin...
Doğru düşün, doğru yürü, əski zülmü
görən türk!
O qaranlıq günlər yenə geri dönər,
bundan ürk!

8/7/334
Arif İrfan Qaraosman
"Azərbaycan"ın təfriqəsi
2 Zəfər yolunda
Ənvər paşa həzrətlərinə!

Məhməd Əmin bəy
ORDUNUN DASTANI

Çanaqqala qəhrəmanlarına

Baxın, bizim doğduğumuz bu əziz el
Yüz quğulu, yaşıl göllü yurda bədəl;
O, cənnətdən çıxanların
Sərəndibdə aradığı yerlər kimi,
Onun səsi "Quran"ların
Ruhumuzda çağlatdığı Kövsər kimi.
Burdadır ki, bizlərin gül ağacından
Beşiyimiz nənnilərlə sallanmışdır,
Altunqanad kələbəklər kimi uçan
Yirmi yaşın sevdaları oyanmışdır.

Bu yurd əsir düşdüyü gün o şəfəqlər,
O arslanlı gümüş sular nəyə yarar?
Artıq bizə o bülbüllü
Qorulardan bir canavar səs yüksələr,
Mənəkşəli, pəmbə güllü
Çəmənlərdən bir zəhərli qoxu gələr.
Şu dünyanın hər yerində zəncirlərin
Qarşısında eşqlər susar, qəlblər inlər,
Ömrü günah kimi çəkən hər əsirin
Dodağında ümid ağlar, matəm gülər.

Ağlamayın! Türk qızları
Zəfərlərə yollar açar,
Bozqırların yıldızları
Karvanlara nurlar saçar.

Ağlamayın, bizlərə siz
Gülə-gülə vida edin.
Vətən üçün o ləkəsiz
Dodaqlarla dua edin!
Biz vətənə hüsnünüzlə məftun olduq,
İrqimizin eşqlərini sizdə bulduq.
Sizin qara gözləriniz
Bizə Bingöl ahuları kimi baxar,
O mələkcə sözləriniz
Min nəğməli Sakaryalar kimi axar.
Bizim bu gün yüksək, vəqur alnımızın
Röyaları, günəşləri bütün sizin,
Şu qaynayan təmiz, əsil qanımızın
İmanları, atəşləri bütün sizin.
Sizlər bizim belimizə taxdığınız,
Ondan sonra məğrur-məğrur
baxdığınız
Şu müqəddəs silahlardan
Köksünüzü qabardacaq şey özləyin,
Xeyli dəmdir duyulmayan
Zəfərləri, şərəfləri həp gözləyin.
Və onlara bənzəyin ki, eşlərindən
Qəhrəmanlıq, fədakarlıq istərlərdi,
Hər birisi son vidanı ediyorkən
"Çələnglərlə, xəl'ətlərlə dönün!" derdi.

Ağlamayın türk qızları
Zəfərlərə yollar açar,
Bozqırların yıldızları
Karvanlara nurlar saçar.

Bizi sizlər türkülərlə yolçu edin,
Ruhumuzda hiddət, qəzəb, kin
titrədin.
Bəxtimizdə dönmək varsa
O şərəfli çatılara uğrarsınız.
Qanlı, dərin yaramıza
Yapdığınız sarğıları bağlarsınız.
Sizin sevən qəlbləriniz bizim o gün
Ən amansız acımızı unutdurar,
Oxşayıcı əlləriniz köksümüzün
Ən onulmaz yarasını qurutdurar.
Siz şəfqətlə, biz qüvvətlə çalışarsaq,
Şu sevgili vətənimiz qurtulacaq,
O sevimli, al yanaqlı
Məsumcuqlar altun dövrə erəcəklər,
Almas daşlı, müşk torpaqlı
Yurdlarının güllərini dərəcəklər.
O qadına nə mutlu ki, ruhu sarsan
Hıçqırıqlı hicranları qəlbdə boğar,
Ömrün bahar çağlarında eşqlə çarpan
Gənc bağrına vətən üçün daşlar basar.

Ağlamayın! Türk qızları
Zəfərlərə yollar açar,
Bozqırların yıldızları
Karvanlara nurlar saçar.

Ağlamayın, bizlərə siz
Gülə-gülə vida edin,
Vətən üçün o ləkəsiz
Dodaqlarla dua edin.

* * *

Gəlibolu, bu qit'ədə neçə şanlı
xatirələr
Orxanların övladına,
Bu dövləti quranların mənqəbəli
həyatına,
O qəhrəman atalara dair neçə şərəflər
var.
Sərxəslərin əsgərini təhqir edən bu
dalğalar
Yeniçəri ordusunun axınını çağlatıyor,
Aşillərin qalxanını seyr eyləyən şu
qayalar
Türkün fateh qılıncının dəhşətini
anlatıyor.
Bizlər burda yeddi əsrin tarixini
oxuyoruz,
Bu mübarək torpaqlara basıyorkən
qorxuyoruz.

Burda əski qəbir[lər]dən
Çıxan bir çox cənazələr kəfənlərlə
silkinmişlər,
Sanki bizə göydən enən
O ilahi yardımçılar kimi nurlar
geyinmişlər.
Bunlar şimdi bu tarixi ovalarda,
sahillərdə,
Şu qırmızı qayalarda, qumsallarda, hər
bir yerdə!
İştə, altun sikkəsiylə o Şahzadə
Süleymanlar,
Ağsunqurlar, Dəmirdaşlar,
İki salda Rumelini fəthə çıxan qırx
yoldaşlar,
Səksən ildə bu dövlətə təməl atan o
arslanlar!
Hər birinin bizə baxan baqır rənkli ər
çöhrəsi
Məşələlər qarşısında imiş kimi
əzəmətli,
Hər birinin dağı-daşı gürlətdirən erkək
səsi
Uzaqlardan qopub gələn rüzgar kimi
məhabətli.
Bunlar bizə deyirlər ki: "Ey Osmanın
əsil nəsli!
Qanımızla yoğurulan bu mübarək,
gözəl eli
İstanbula kilid olan
Bu sevgili torpaqları düşmənlərə
çiynətməyin!
Hər dağından, qumsalından
Təkbir gələn bu yurdları Avropaya tərk
etməyin.
İstanbulun, məmləkətin ümidləri
bütün sizdə,
Şərqin, Qərbin istiqbalı bu gün sizin
əlinizdə!"
Ah İstanbul! Bu türklərin bir başlayan
tarixidir,
Onun yeddi təpəsindən
Mərmərəyə, Boğaziçi sularına əks
eyləyən
Sarayları, qübbələri beş yüz ildən
xəbər verir.
O cahangir Fateh burda Şərqin əski
Asyasına
Avropadan yeni bir nur girsin deyə
qapı açmış,
Kralların, papaların fəzilətsiz
dünyasına
Oğuzların vicdanıyla, əxlaqıyla həyat
saçmış.
Burda yirmi doqquz xaqan şərəflərlə
tac geymişlər,
Burda Qərbin bir çox məğrur
qeysərləri baş əymişlər.
Bu yer, şanlı bir millətin
Ehramlardan daha böyük mədəniyyət
heykəlidir,
Bu yer – Rəsul Məhəmmədin
Haqq-ədalət məbədinin təməlidir.
Bu bəldənin arxasında müslümanlıq,
türklük vardır,
Əgər bura sarsılarsa, bütün bunlar həp
yıxılır.

Sonu var

MƏHƏRRƏM TÖHFƏSİ

Məhərrəm zərəstü səfər ayinə

Rəhmətlik şair Qumri aylar düxulunda [girəcəyində] yeni hilalı gördükdə burasından ötrü nəyə baxmağı şeir ilə demiş. Məhərrəm ayı daxil olduqda qızıla baxmalıdır deyir.

Buyur, imdi qızılı tap görək nərədən tapacaqsan. Ha fikr eyləyirəm, bir şey çıxmır. Mən biçarə qızılı nərədən bulacağam? Pək əla, mən cəhənnəm, bəs bizim saqqalı hənalı, dili dualı, barmaqları fındıqçalı [çırtıqlı] hacılarımız görəsən nə etmiş? Həpsi un alış-verişi etməyib ki, puta qırx-əlli manat qazanmaqla qızıl toplasınlar. Hacılarımız böylə olduqda, yazıq qarein [oxucular] nə yapacaq?

Bu xəyal ilə fırlana-fırlana idarəyə gəldim. Elə təzəcə oturmuşdum ki, müdir əfəndi "Haydi, tez ol, bir şey yaz" deyə tələsdirməyə başladı. Mən hıqqana-hıqqana qızıl bulmadığım hekayətini söylədim. Müdir bir bərkdən gülüb "A kişi, sən bəs nə vaxt ağıllı olacaqsan?" deyən kimi doğrudan da qızardım. Sən Allah, heç insafdır, tam on gündür ki, məhərrəmliyə başlamışam, əziyyət çəkib ad qazanmışam. Birdən nə oldum? Ağılsız? Yenə də müdirə hörmət edib sözünün canını gözləməyi qət etdim. Müdir: "A kişi, heç eşitməmisən, yaxşı söz qızıldan qiymətlidir?"

Doğrudan da bu ağlıma yerləşdi. Əlimi başıma uzadıb bir yaxşı söz axtarırdım ki, qareinə qızıl əvəzində təqdim edim. Çırt, bircə tək səbir gəldi. Deməli, başımda yaxşı söz yoxmuş. Haqq bərəkət versin yenə zehnimə. Əski məktəbxanada oxuduğum kitabları gözlərimi yumub vərəqləməyə başladım. İştə, bir neçə söz buldum.

1) "Çox bilirsən, az danış." Yəni gördün ki, yuxarı məhəllələrdə üfunətdən yürümək mümkün deyil, dalanlarda düşmüş it-pişik cəmdəkləri üzərinə yığılmış çibinlər min cür müsri [yoluxucu] xəstəliklərə səbəb olur və yainki çürük armudu taksa ilə 3 manata satırlar, danışma.

Gördün ki, müsəlman ətfalı [uşaqları] veyil-sərgərdan, məktəbsiz dolanırlar və yainki ziyalıların millət naminə saat beşdən saat ona kimi burada təfərrüc [gəzinti] yapırlar, bir söz söyləmə.

Gördün ki, filan şey filan məsələdən naşi [ötrü] filan şəkildədir və yainki filankəs filanlığından dolayı filan iş yapır, lal ol, danışma, bir söz söyləmə.

2) "Bazara girdin gözü qıpıq, sən də olgilən gözü qıpıq." Yəni çıxdın gördün ki, Gəncə "tacir"ləri Türk Ordusu arxasınca qarabaqara Bakıya təəssübi-milliyyə [milli təəssübkeşlik] naminə gəlib, altı şahıya satılan ispiçkanı toplayıb ambarlara yığmaqla qiyməti bir manata çıxarmışlar, sən də Gəncədən üzümü alıb burada dörd qiymətinə sat. Baxdın gördün ki, cavanlarımız əsgərlik şərəfinə həpsi ərzaq məsələsi ilə uğraşırlar, sən də o işə!..

3) "Palaza bürün, el ilə sürün." Yəni gördün ki, cavan uşaqlar dəstə bağlayıb təblsinc [nağara və sinc] çala-çala küçələri dolaşırlar, sən də başını aşağı salıb onlarla bərabər dolan. Və yainki "Metropol" oteli qarşısında bir izdiham durub nizamla şeypur çalıb baraban vurur, sən də ağzına bir şeypur alıb filə [üflə]. Gördün ki, dəlləyi, baqqalı, əttarı [ətir və ədviyyat satan] çürük-çülük edir, sən də çürükçülük eylə və yainki gördün ki, gələcək türk ölkəsi Azərbaycanı təmin etmək məqsədi ilə cavan tələbələr Ukraynaya təhsilə gedir, sən də təhsil qəsdi ilə Gürcüstana get, fəqət məbada ki, Türkiyəyə gedəsən a!

Dilfirib

NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

* Mərkəzi Azərbaycan Dövlət Bankasının nazirliyinə Tiflisdəki sabiq Dövlət Bankası naziri S. Q. Pritulin, Hökumət əmri ilə təyin edildi.

* Gömrükxana işləri, Maliyyə Nəzarəti idarəsinə mühəvvəl edilmişdir [tapşırılmışdır].

* 12 təşrini-əvvəldə [oktyabrda] gürcü heyəti-mürəxxəsəsinin [nümayəndə heyətinin] Maliyyə, Yol [Nəqliyyat və Rabitə], Səna'ət [Sənaye] və Ticarət nazirləri ilə müşavirəsi vaqe oldu.

* İşin kəsbi-sühulət etməyi [asanlaşması] üçün Tağıyev fabrikasına (fabriçni inspektor) məsai naziri, hökumət tərəfindən təyin edilmişdir.

* Tağıyev fabrikasında bundan sonra bez və mitqaldan maəda [başqa] üst palları üçün də burada mal hazırlanacağını nəzərə alaraq, hökumət Səna'ət və Ticarət nazirinə tənbeh etmişdir ki, böylə mallara möhkəm qiymət qoymağa şüru edilsin [başlansın].

Ticarət və Səna'ət Nəzarətindən

Fəhlələrə verilmək üçün hökumət tərəfindən on beş milyon rublə para buraxılır. Bu paralar səşənbə [çərşənbə axşamı] günü hesabına alınıb, mədənlərdə fəhlələrə veriləcəkdir.

Hökumət Kontrolu [Müfəttişi]

Bu idarə yavaş-yavaş qaydaya düşür. Əbdüləli bəyin çalışqanlığı və onun təcrübəsi lazımi dərəcəyədək yüksəldiyinə kəsbi-əmniyyət [etibar] etmək olar. Sabiq qayda üzrə yeddi-səkkiz ildə bir dəfə kontrol təftiş icrasına başlar, bəzən çoxdan olmuş və keçmiş bir cinayətin yerini vəsiqələrdən [sənədlərdən] duyardı. O zaman bəlkə cinayətkar əldə edilmədikdə, iş də fövt olacağı [əldən çıxacağı] mühəqqəq [qəti] idi. Lakin şimdi Əbdüləli bəyin öz təklifi ilə kontrol büsbütün hökumətdən kənar işləyir. Hansı bir idarənin işində bir yaramazlıq duyulduğu anda işin cərəyanı dayandırılacaq, təftiş bütün mənası ilə icra ediləcəkdir. İşlərdə bir xəta görülmüş olsa, həmən gün qəzetələr vasitəsi ilə iş sahibi haqqında alınmış məlumat elan ediləcəkdir. Hökumət iclasında bu fikir əsas etibarınca qəbul edilmişdir. Bu vasitə ilə icra olunmuş cinayət tez bir zamanda məlum olar və cani də cəzasına yetər.

Maliyyə Nəzarətindən

Maliyyə Nəzarəti tərəfindən Daxiliyyə Nəzarəti vasitəsi ilə uyezd (nahiyə) naçalniklərinə elan edilmişdir ki, Bakı pulları bütün Azərbaycanda digər paralar ilə müsavi bir fiatda olmalıdır. Bu xəbəri verməklə ümum uyezdlərə bir milyon rublə Bakı paralarından göndərilmişdir.

DAXİLİ XƏBƏRLƏR

* Gəncədən verildiyi xəbərlərə nəzərən, orada bütün məktəblər açılıb, təşrini-əvvəlin [oktyabrın] birində dərslərə şüru edilmişdir [başlanmışdır]. Gimnaziya və mədrəsəyə islam çocuqlarında böyük rəğbət müşahidə edilir.

Səfərabad, Əttarlar və Toyuqçu soqaqlarında yeni məktəblər açılmışdır. Svyataya Nina məktəbi, Ünas [qızlar] gimnaziyasına mübəddəl edilmişdir [çevrilmişdir] və onun milliləşmiş birinci sinifləri şəhərin birinci hissəsinə köçürülmüşdür. Qız balalarımız qayət iştiyaq [şövq] və həvəslə sıraları doldururlar. Bu xüsusda Şeyxülislam həzrətləri çox qeyrət göstərmişdir.

* Gəncədən alınmış xəbərlərə görə, Gəncə nahiyəsində əxzi-əsgər [əsgərliyə qəbul etmə] işləri çox gözəl getməkdədir. Köylərdən alınmış yeni əsgərlər bəzən musiqi çalaraq və şərqi oxuyaraq şəhər soqaqlarından keçirlər.

İdarə: Yaşasın yeni əsgərliyə meyl və iştiyaqla gedən gənclərimiz. Belə bir həvəs buradakı cavanlarımızdan da bəklənirdi.

GÜRCÜSTANDA

Gürcü nişanı

Gürcüstan Hökuməti qət etmişdir ki, hökumət nişanı müqəddəs Jorj [Georgi] təsviri olmalıdır. Fəqət bu nişanda əjdaha şəkli olmamalıdır.

Edam cəzası

Novo-Sanakidə məhəlli [yerli] hərbiyyə məhkəməsi Menqreliyadakı bolşevik dəstələri başçılarından ədd [hesab] edilən Çxetiani, Oçiqava, Kadjaya nam əşxası [adlı şəxləri] edam cəzasına məhkum etmişdir. Bunlar güllələnəcəklər. Çxetiani qətl edilmişdir.

Qraf Şollenburqun övdəti [qayıtması]

Gürcüstandakı Almaniya heyəti-mürəxxəsəsi [nümayəndə heyəti] başçısı qraf Şulenburq təşrini-əvvəlin [oktyabrın] 11-də övdət etmişdir. Bu zat, Berlin və İstanbulu ziyarət etmişdir.

Gürcüstan ilə mal mübadiləsi

Gürcüstan Hökuməti təşrini-əvvəlin 8-dəki iclasında Maliyyə, Ticarət və Sənaət [Sənaye] naziri məruzəsi mövcibincə qət etmişdir ki, Bakıda heyəti mürəxxəsəsi [nümayəndə heyəti] cənbində [nəzdində] mal mübadiləsindən ötrü xüsusi bir komisyon təşkil etsin. Bu komisyon siyasi mürəxxəsin [siyasi nümayəndənin, səfirin] təhti-sədarətində [sədrliyi altında] işləməlidir. İşbu komisyona Maliyyə, Səna'ət və Ticarət, Türüq və Məabir [Nəqliyyat və Rabitə], Ərzaq Nəzarətləri, Bakı gürcü koloniyası [icması] və padşahlıq kontrolluğundan [Dövlət Müfəttişliyindən] birər nümayəndə daxil olur. Bununla bərabər qət edilmişdir ki, Gürcüstan siyasi mürəxxəsinə Azərbaycan ilə mal mübadiləsindən ötrü müzakiratda bulunmaq, müqavilələr əqd etmək [bağlamaq] və başqa iqtisadi məsələlərə girişməkdən ötrü ixtiyar verilsin.

Kubandan əkmək

Tiflisdəki Mərkəzi Ərzaq Şurası sədri namına [adına] Potidən teleqram alınmışdır ki, Poti bəndərinə [limanına] Kubandan Ərzaq Nəzarəti müvəkkili tərəfindən Gürcüstan üçün alınmış buğdanın əvvəlinci vaporu gəlmişdir.

TERSK NAHİYƏSİNDƏ BOLŞEVİK BÖLÜYÜ GÜLLƏBARAN EDİLMİŞDİR

Eylülün [sentyabrın] 12-də Mozdokda Tersk nahiyəsi kazaklarının qurultayı olmuşdur. Qurultayda müharibə və sülh məsələsində əksəriyyəti-səda [səs çoxluğu] ilə qət edilmişdir ki, bolşeviklərlə mübarizə edən könüllü kazak qoşunlarına müavinət [yardım] edilsin.

Nümayəndələr arasında Şura ehsasını [hisslərini] qəbul etmiş Piyatiqorsk kazakları müntəxəbi [seçilmiş nümayəndəsi] bu təklifi rədd etmişlər.

Qurultayın qətnaməsinə baxmayaraq, Qroznı cəbhəsinə hazırlanan işbu bölük getmək istəməmiş, fəqət zorla göndərilmişdir.

Bunlar sipərlərdə izhar etmişlər ki, müharibə yapmayacaqlar. Bundan xəbərdar olmuş ali kazak komandanlığı xəbər vermişdir ki, bölük [batalyon] təərrüzdən [hücuma keçməkdən] imtina edərsə, topa tutulacaqdır. Bölükdə ixtilaf başlanar. Beş yüzə baliğ [çatan] bir dəstə qəti surətdə imtina etdiyindən dolayı, Yermolovska getmək istər.

Eylülün 15-də saat beş radələrində üsyançılara atəş açılmışdır. Əvvəllər top mərmiləri şəhərə düşürmüş, sonralar isə bir tək mərmi sipərlərə də isabət edər [səngəri də vurar].

Bolşevik kazaklar miyanında [arasında] həyəcan başlanar. Bir hissəsi sipərlərdən çıxarlarsa da, mitralyoz və tüfəng atəşinə məruz qalmışlar.

Həmin vaxt Qroznının bolşeviklər olan hissəsindən bunların üzərinə şrapnel atəşi açılar. Üç saatdan sonra atəş dayanmış. Axirüləmr [işin sonunda] məlum olmuşdur ki, 500-lük bir dəstə bütünlüklə güllələnmişdir. Kazaklar bolşevik xəstəliyini kökündən kəsməyi qət etmişlər.

İtibdir

Qafur İsa oğlunun Axtıdan verilən bir illik pasportu qeyb olmuşdur. Etibardan saqitdir [etibarsızdır].

İbiş Mehdi oğlunun Gorus şəhərindən verilmiş bir illik pasportu qeyb olmuşdur. Bulunduğu zaman etibardan saqitdir.

Elan

Dinlərin[in], vətənlərinin mühafizəsi üçün İslam ordusuna qeyd olunmaq üzrə Bakı şöbəsinə və digər kənd və qəsəbələrdəki komandanlara müraciət edənlərin miqdarı gün-gündən çoxalmaqda, hər kəsin ətrafımızı saran din, vətən, irz və namus düşmənlərinə qarşı hazırlanmaqda olduğu böyük şükranla görülməkdədir.

1-ci maddə – Cavanların ata və analarına və özlərinə bəyan olunur ki, müəyyənsizlər indi İslam ordusuna alınmayacaqdır. Hər kim ki, ərizə yazdıracaq olarsa, kəndini, qəsəbəsini, məhəllələsini, mövlud tarixini, əsgər olan çocuğunun və atasının ismini gözəlcə qoysun, ərizənin zirində [altında] imzası xoşca oxunsun.

2-ci maddə – Mollalara və heyəti-möhtərəməyə [ağsaqqallar heyətinə] bəyan olunur ki, bir cavanın əsgərlik müayinəsində bütün erkək qardaşlarını, əqrəbalarını kətm etməsin [gizlətməsin]. Cavanların sənətini, oxuyub-yazmasını, məktəblərdə isə hangi məktəbdə və hangi sinifdə olduqlarını gözəlcə bilsin və zabit əfəndilərə hekayə eyləsin və cavanların özlərindən sual olunmasa belə, yenə zabit əfəndilərin başlarına düşürsün, anlatsın.

3-cü maddə – Xəstə cavanlar dəxi şöbələrinə məhəlləsi cavanları ilə bərabər gəlsin, vaxt keçirməsinlər. Gəlməyənlər haqqında xatalı müamilə olmaq ehtimalı olacağından, özlərini əsirgəsin. Hangi gün, hangi məhəllələr kəndi əxzi-əsgər şöbəsinə gələcəkdir – bunlar Bakı şöbəsi tərəfindən mollalara və heyəti-möhtərəməyə elan olunmuş və olacaqdır.

İslam ordusu Əxzi-əsgər rəyasəti.
15 təşrini-əvvəl 34.

Müdirlər:
Ceyhun bəy Hacıbəyli
Şəfi bəy Rüstəmbəyli

TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

İxtar
"tasua": Məhərrəmin 9-cu günü, aşura gününün axşamı.

Ordu komandanı Paşa həzrətləri xüsusi ziyarətləri
Qafqaz İslam Ordusu komandanı Nuri paşa nəzərdə tutulur.

"Ordunun dastanı" şeiri (səh. 252-254) üçün lüğət
vəqur: vüqarlı; məğrur
baqır: mis
məhabətli: heybətli
çiynətmək: tapdalatmaq

Bakı, 16.10.34
Burada il, rumi təqvimlə göstərilmişdir (1334-cü il). Miladi təqvimlə 16 oktyabr 1918-ci ilə uyğundur.

Teleqraf xəbərləri: Qafqaziya İslam Ordusunun qərargahından
"11.10.34": Burada il, rumi təqvimlə göstərilmişdir (1334-cü il). Miladi təqvimlə 11 oktyabr 1918-ci ilə uyğundur.

"13/14.10.34": Burada il, rumi təqvimlə göstərilmişdir (1334-cü il). Miladi təqvimlə 13-14 oktyabr 1918-ci ilə uyğundur.

Teleqraf xəbərləri: Dağıstan istiqlaliyyətini elan etdirmək
"12.10.34": Burada il, rumi təqvimlə göstərilmişdir (1334-cü il). Miladi təqvimlə 12 oktyabr 1918-ci ilə uyğundur.

İstanbul qəzetlərindən
"Zati-həzrəti-şəhriyarinin cülusi-hümayunlarını…": 3 iyul 1918-ci ildə taxta çıxan Osmanlı sultanı VI Məhməd nəzərdə tutulur. VI Məhməd, şahzadə Əbdürrəhim əfəndinin əmisi idi.

Təhlükə qarşısında: Qarabağın son günləri
"Şahnəzəryan": Andranik (yaxud Andrey) Məlik-Şahnəzəryan nəzərdə tutulur.

"Türk duyğuları: Haqdan ürk" şeiri üçün lüğət
ökcə: daban
taxınmaq: (belinə) taxmaq, qurşanmaq

Türk duyğuları: Haqdan ürk
"8/7/34": Burada ay və il rumi təqvimlə göstərilmişdir (7-ci ay, 1334-cü il). Miladi təqvimlə 8 sentyabr 1918-ci ilə uyğundur.

Ordunun dastanı
"Sərəndib": Hindistanın cənubundakı Şri-Lankaya Orta əsrlər müsəlman coğrafiyaşünaslarının verdikləri ad.
"Kövsər": cənnətdəki müqəddəs su (bulaq, çay, yaxud hovuz)
"Orxan": Osmanlı dövlətinin ikinci padşahı olan Orxan Qazi nəzərdə tutulur.
"Sərxəs": Əhəməni hökmdarı I Kserks nəzərdə tutulur.
"yeniçəri": XIV-XIX əsrlərdə Osmanlı imperiyasında nizami piyada qoşunu növü.
"Aşil": qədim yunan mifologiyasının və Homerin "İliada" poemasının qəhrəmanlarından Axilles nəzərdə tutulur.
"Şahzadə Süleyman": Oğuzların Qayı boyunun lideri olmuş Süleyman Şah nəzərdə tutulur.
"Ağsunqur": Oğuzların Avşar boyuna mənsub olan Səlcuqlu sərkərdəsi Ağsunqur bəy nəzərdə tutulur.
"Dəmirtaş": XIV əsrdə Elxanlı dövlətinin Anadolu valisi olan Dəmirtaş nəzərdə tutulur.
"Osman": Osmanlı dövlətinin banisi I Osman nəzərdə tutulur.
"Fateh": Osmanlı sultanı II Məhməd nəzərdə tutulur.
"iyirmi doqquz xaqan": İstanbulun fəthindən sonra taxta çıxan Osmanlı sultanları nəzərdə tutulur.

Daxili xəbərlər
"…və onun milliləşmiş birinci sinifləri şəhərin birinci hissəsinə köçürülmüşdür…": şəhərin müsəlmanlar (Azərbaycanlılar) yaşayan hissəsi nəzərdə tutulur.

Gürcüstanda: Gürcü nişanı
Burada söhbət Gürcüstan Respublikasının dövlət gerbinin təsdiq olunmasından gedir.